MahadSunnah

هيثم سرحان

الفرق بين المني و المذي

Məni ilə məzi arasındakı fərq

Azərbaycan dili

اللغة الأذرية

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri



Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

Sual: Sperma (Məni) ilə məzinin fərqi nədir? Hər iki halda paltara düşərsə nə etmək lazımdır?

Cavab: Kişinin mənisi ağ və sərt olur. Qadının mənisi isə sarı və yumuşaq olur.

Allah Rəsulu ﷺ buyurur:

“Kişinin suyu ağ və sərt olur. Qadının suyu isə sarı və yumuşaq olur. Hansının suyu yüksək olarsa və ya qabaqlayarsa (övladda) oxşarlıq ona olur”.[1]

Spermanın sperma olması ilə bağlı olan xüsusiyyəti üçdür:

1. Onun ifrazının həzzlə olması və çıxdıqdan sonra insanın qüvvətdən düşməsidir.
2. Onun qoxusunun xurma tozunun və ya xəmirin qoxusuna bənzəməsidir.
3. Sperma ifrazı zərblə və dəfələrlə olmasıdır. (Bu, kişi üçündür).

Və bu üçünün hər biri onun sperma olduğunu sübut etmək üçün kifayətdir. Onların hamısının bir anda olması şərt deyil.

[1] Muslim 311

Məziyə gəlincə, o, yaxınlıq etməyi fikirləşmək və ya istəmək zamanı çıxan ağ, yapışqan sudur. O çıxan zaman həzz gəlmir və çıxdıqdan sonra taqətsizlik olmur. (Bu kişi və qadın üçündür və kişilərdən daha çox qadınlarda olur).

Sperma cənabətdən qüslu vacib edir. Bu istər oyaq vaxtı cinsi əlaqə zamanı, istərsə də başqa bir şəkildə, yaxud yuxuda ihtilam (cunub) olarsa.

Uca Allah buyurur:

قال تعالى: ﴿وَإِن كُنتُمْ جُنُبًا فَٱطَّهَّرُواْ﴾ [المَائِدَة : ٦]

"(Yaxınlıq edib) natəmiz olmuşsunuzsa, qüsl alın."[2]

Məziyə gəlincə: Bu zaman yalnız dəstəmaz almaq lazımdır.

Əli (Allah ondan razı olsun) rəvayət edərək demişdir:

"Məndən məzi çox gəlirdi, ona görə də Miqdada tapşırdım ki, Allah Rəsulundan ﷺ bu barədə soruşsun. O, Allah Rəsulundan ﷺ soruşdu və Allah Rəsulu ﷺ dedi:

"Bunun üçün dəstəmaz vacidir".[3]

Sperma, Alimlərin üstün rəyinə görə təmiz sayılır. Aişə (Allah ondan razı olsun) rəvayət edərək buyurur:

---

[2] əl-Maidə surəsi, 6-cı ayə
[3] Buxari və Muslim

“Peyğəmbər ﷺ mənisini yuyar və həmin paltarda namaza çıxardı. Mən də yuduğu yerin izinə baxardım.”[4]

Başqa rəvayətdə buyurub:

“Mən Peyğəmbərin ﷺ paltarını ovxalayıb təmizləyərdim və onunla namaz qılardı.”[5]

Məziyə gəldikdə isə, yuxarıda qeyd olunan Əlidən (Allah ondan razı olsun) gələn hədisə əsasən nəcisdir. Hansı ki, o hədisin bəzi yollarında Peyğəmbər ﷺ övrət yerinin və xayaların yuyulmasını və dəstəmaz almasını əmr etmişdir.

Məni pakdır rəyinə görə, paltarın üstünə düşsə belə, onu nəcis etməz və həmin paltarla namaz qılsa, problem yoxdur.

İbn Qudama (Allah ona rəhmət eləsin) buyurur:

“Əgər spermanın təmiz olduğunu desək, onu ovxalayıb təmizləmək müstəhəb olur və ovxalayıb təmizləmədən namaz qılsa belə, namazı doğru sayılar.”[6]

Məziyə gəlincə, məşəqqət olduğuna görə paltara su səpmək kifayətdir.

Buna dəlil Səhl ibn Huneyfdən (Allah ondan razı olsun) gələn hədisdə deyir:

---

[4] Buxari və Muslim
[5] Muslim 288
[6] Muğni 1/763

Mən çiddətli şəkildə məzi ifraz edirdim, buna görədə çoxlu qüsl alırdım. Peyğəmbərdən ﷺ bu barədə soruşdum. O ﷺ dedi:

- “Dəstəmaz almağın kifayətdir.”

+ Mən dedim: Ey Allahın Elçisi, bəs paltarıma dəyəni necə edim?

- O dedi: “Paltarının üstündə hansı hissənin bulaşdığını düşündüyün yerə bir ovuc su götürüb səpməyin kifayətdir.”[7]

Allah daha doğrusun bilir.

[7] Abu Davud 210